# BAKI ŞƏHƏRİNDƏ EVSİZ ŞƏXSLƏRİN QARŞILAŞDIQLARI QİDA ÇATIŞMAZLIĞI VƏ QİDA ZƏHƏRLƏNMƏSİ PROBLEMLƏRİ



2022

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# BAKI ŞƏHƏRİNDƏ EVSİZ ŞƏXSLƏRİN QARŞILAŞDIĞI QİDA ÇATIŞMAZLIĞI VƏ QİDA ZƏHƏRLƏNMƏSİ PROBLEMLƏRİ

**Müəlliflər: Ramil Babayev və Kənan Əliyev**

**Baku- 2022**

# Mündəricat

1. Giriş və mövzunun təsviri ........ 4
2. Tədqiqat dizaynı ........ 12
3. Əldə olunmuş data ........ 13
4. Nəticə ........ 18
5. İstifadə olunmuş ədəbiyyat siyahısı ........ 20

# 1. Giriş və mövzunun təsviri

*Evsizlik anlayışı*

BMT İnsan Hüquqları Mərkəzinin 1989-cu il bəyanatında da qeyd edildiyi kimi, təhlükəsiz və uyğun qiymətə olan ərzaq təminatından faydalanmaq əsas insan hüquqlarından biridir. Bu hüquq İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda və 120-dən çox beynəlxalq hüquq sənədində açıq şəkildə göstərilib. Ancaq təəssüf ki, dünya üzrə bir çox insanlar üçün bu hüquq əlçatan deyil. Bu böyük insan kütləsinə evsiz insanları da aid edə bilərik.

Evsizliyə – gecələri müntəzəm olaraq adekvat yaşayış yerində, nəzarət edilən ictimai və ya özəl sığınacaqda keçirməmək, insanların yatması üçün nəzərdə tutulmayan məkanlarda yatmaq halı kimi yanaşa bilərik. Burada qeyd etdiyimiz sığınacaq məsələsinin, həmçinin gecəni hostellər və fərqli evlərdə keçirmək hallarının evsizlik sayılıb-sayılmayacağı ilə bağlı fərqli ölkələrin qanunlarında və sosioloqların təhlillərində müxtəlif yanaşmalarla qarşılaşmaq mümkündür.

Bu vəziyyətdə neçə müddət yaşamaları əsasında **evsizləri** aşağıdakı qruplara ayırmaq mümkündür: **daimi** — daha əvvəl neçə dəfə evsizlik vəziyyətinə düşməsindən asılı olmayaraq, bir ildən çox davam edən evsizlik halı; **epizodik** — bir ildən az davam edən evsizlik və həyatı boyunca iki dəfə, ya da daha artıq evsiz vəziyyətə düşmək; **yeni başlamış** — bir ildən az müddətdə evsiz olmaq və daha əvvəl evsiz qalmamaq. (3, s. 8)

*Evsiz insanlarla bağlı bəzi statistik məlumatlar*

Evsiz əhalinin sayını müəyyənləşdirmək bir çox səbəblərə görə olduqca çətindir. ABŞ Mənzil və Şəhər İnkişafı Departamentinin (HUD) məlumatına görə, Birləşmiş Ştatlarda təqribən 553000 insan evsizlikdən əziyyət çəkir. (15, s. 1) Avropa İttifaqında (Aİ) evsizlərin sayının ən azı 700000 nəfər olduğu güman edilir. Son illərdəki statistikalarda Polşada 30000-36000 arası, Fransada 140000-dən çox, Kanadada 130000-dən artıq, Türkiyədə 100000-ə qədər evsiz şəxsin yaşadığı ehtimal edilir. (10, s. 5) Azərbaycanda isə hər hansı bir dövlət qurumunun bununla bağlı ilkin statistik hesablamasına rast gəlmək mümkün deyil. Lakin yuxarıda verdiyimiz rəqəmləri həmin ölkələrdəki əhali sayına nisbətdə qiymətləndirdikdə ümumi əhalinin orta hesabla 0.1-0.3%-nin evsiz olduğunu görürük. Problemin miqyasını təsəvvür etmək üçün bu faiz aralığını Azərbaycana da tətbiq edəcəyimiz halda, ölkədə 10000 nəfərdən artıq evsiz şəxsin yaşadığını güman etmək olar. Hüquq müdafiəçisi Arzu Abdullayevanın fikrincə isə, Azərbaycan üçün bu rəqəm 50000-dən artıqdır. (1)

Müxtəlif ölkələrdə keçirilmiş tədqiqatların nəticələrinə əsasən, evsiz insanların orta yaşı 37 ilə 43 arasındadır. (8, s. 1) Həmçinin evi olanlarla nisbətdə evsiz əhalinin ölüm riski daha yüksəkdir. Bunun səbəbi kimi evsiz insanların daimi mənzildə yaşayan əhali ilə müqayisədə psixi pozğunluqlar, ağciyər infeksiyaları, mədə-bağırsaq xəstəlikləri, diş və dəri xəstəlikləri kimi

bir sıra xəstəliklərdən daha çox əziyyət çəkmələrini qeyd edə bilərik. Böyük Britaniyanın rəsmi statistik məlumatlarına əsasən, evsizlərin orta ölüm yaşı kişilər üçün 44, qadınlar üçün isə 42-dir. (19) Bu rəqəmlər yaşı 40-a yaxın olan evsizlərin vaxtsız ölümə gətirən və sürətlə inkişaf edən xəstəliklərin daşıyıcısı olmaları riskinin yüksək göstəricisi sayıla bilər.

Əslində, evsiz insanlarla bağlı bir çox tədqiqatlarda qeyri-təbii ölüm səbəblərinin (yol qəzaları, zəhərlənmə, yüksək hərarət, boğulma, yıxılma, yaralanma) bu sahədə təbii ölüm səbəblərindən daha böyük paya sahib olduğu aşkar edilib. Yağanın Ankarada 1997-2006-cı illər arasında ölən 127 evsizin cəsədini yarmaqla apardığı araşdırmasında ölümlərin 55,11%-nin qeyri-təbii, 67,71%-nin isə ümumi gigiyenik vəziyyətinin pis olduğu səbəbindən baş verdiyi göstərilib. Ölüm hallarının qeyri-təbii səbəbləri kimi yol-nəqliyyat hadisələri (14,17%), alkoqoldan zəhərlənmə (7,87%) və qidalanma problemlərindən irəli gələn multiorqan çatışmazlığı (5,51%) bu tədqiqatda daha çox rast gəlinən hallar idi. (20, s. 5)

*Evsiz insanlarda qida təhlükəsizliyi*

Bütün bunlar evsiz şəxslər üçün təhlükəsiz və sağlam qidaya çıxışın nə dərəcədə vacib olduğunu sübut edir. Bu məsələyə daha geniş müstəvidən yanaşsaq, evsizlik və təhlükəsiz qidaya çıxış əldə etmək çətinliklərinin hər ikisi yoxsulluq probleminin yaratdığı reallıqlardır.

Təhlükəsiz qida, *"sağlam həyat tərzi üçün tələb olunan qidanın miqdarı və növü ilə bağlı qeyri-müəyyənlik olmadan və ya qida əldə etmək üçün sosial cəhətdən qəbuledilməz üsullardan istifadə zərurəti olmadan əldə olunan qida"* sayıla bilər. (13, s. 71-77) Qida təhlükəsizliyini bu formada konseptuallaşdırdıqda buraya aclığı, keyfiyyətli qidaların tövsiyə olunan miqdarda qəbul edilə bilinməməsini və qida zəhərlənməsini aid edə bilərik.

Evsizlər üzərində aparılmış əvvəlki tədqiqatlarda kalori qəbulu, vitamin və mineral çatışmazlığı, bədən kütləsi, xolesterol səviyyəsi və qidalanma ilə bağlı sağlamlıq problemləri təhlil edilib. Bu tədqiqatlar bizi qiymətli klinik dəqiqlik dərəcəsi ilə təmin edir, ancaq onların çoxlu resurs və vaxt tələb edən üsulları (məsələn, qan nümunələrinin, antropometrik ölçülərin və təfərrüatlı qida gündəliklərinin istifadəsi) tətbiq etmələri bu metodun istifadəsini irimiqyaslı layihələr üçün mümkünsüz edir. Ona görə də belə tədqiqatlar alternativ olaraq evsiz şəxslərin özlərinin öz vəziyyətləri barədə məlumat vermələri əsasında təşkil olunur. Burada son bir və ya iki gündə yediklərini xatırlamaları təmin olunmaqla evsiz insanların gündəlik enerji qəbulu səviyyəsi və gündəlik yağ, karbohidrat və zülal qəbulu səviyyələri üzə çıxarılır. Sığınacaqda yaşayan evsiz şəxslərin qidalarını bu cəhətdən qiymətləndirmək üçün isə sığınacaqların menyusu eyni yanaşma üzrə qiymətləndirilir.

Sorğu sualları hazırlayarkən, evsiz şəxslərin qidalanmasında kəmiyyətlə yanaşı, istehlak edilən qidanın keyfiyyətinin də vacib olduğu nəzərə alınmalıdır. Gelberqin tədqiqat nəticələrinə əsasən, bu şəxslərin beşdə biri öz qidalarını zibil qutularından götürür və ya sədəqə kimi alır. (3, s. 4) Qidanın təhlükəsizliyinin təmin olunması, evsiz insanın növbəti yeməyin haradan gələcəyi

ilə bağlı narahatlıqlarını aradan qaldırmaq və onun damğalanma hesab edilə biləcək mənbələrə müraciət etməsinin qarşısını almaq baxımından da vacibdir. Pulsuz yemək proqramlarından istifadə ən çox yayılmış qida əldə etmə strategiyaları arasında yer alsa da, utanc və ya xəcalət hissi bəzi evsizlərin buna tez-tez müraciət etmələrinə mane olur. Başqa tərəfdən, Blek bu məqamı vurğulayır ki, hətta sosial və iqtisadi cəhətdən təcrid olunmuş insanlar, o sıradan yoxsullar və ya evsizlər kimi zərurət qarşısında olanlar üçün aclığa görə atılmış yeməkləri toplamaq utancverici və ya xoşagəlməz hərəkət kimi görülə bilər. (16, s. 141-150)

Gəlirlərinin, yemək hazırlama və saxlama imkanlarının (mətbəxlərinin) olmaması səbəbindən evsizlər sağlam qidalanmaq yolunda maneələrlə üzləşirlər. Bir çox evsizlərin onlara yaxın ailə üzvləri, yaxud onları qida və sığınacaqla təmin edə biləcək başqa sosial dəstək sistemləri yoxdur. Müəyyən demoqrafik statuslara sahib olmaq isə evsiz insanlarda problemlərin öhdəsindən gəlmə resursu kimi çıxış edə bilər. Məsələn, hər hansı bir gəlir mənbəyinin varlığı evsizlərin aclıq riskini azaldan faktordur. Həm təcrübə nəticəsində özünü təmin etmək üçün daha təkmil strategiyalar qurula bildiyi, həm də yaşlı insanların daha çox sosial təminata (müavinətlər, pensiyalar və s.) çıxışı olduğu üçün yaş amili də burada ayrı bir təsirli demoqrafik amil kimi qiymətləndirilə bilər. Şəhərdə yaşamaq sığınacaqların və ictimai iaşə obyektlərinin şəhərlərin mərkəzində cəmləşməsi səbəbindən başqa bir potensial resurs təşkil edir. Tədqiqatlar da bu dediyimizi təsdiqləyir ki, evsiz şəxslərin 80%-dən artığı şəhər mərkəzlərində yaşayır. Resurs və ya maneə kimi konseptuallaşdırmaq mübahisəli olsa da, gender də diqqətəlayiq bir faktordur. Belə ki, bəzi tədqiqatlarda bu nəticəyə gəlinib ki, evsiz kişilər evsiz qadınlara nisbətən daha çox aclıq çəkir, daha keyfiyyətsiz qidalanır və qida əldə etmək üçün daha ekstremal vasitələrə əl atırlar. (3, s. 5)

Evsizlər gündə orta hesabla yalnız iki dəfə yemək yeyirlər. Onların qidalanmaya yanaşması "təsadüfi yemək" yanaşmasıdır. Yəni bu şəxslər, adətən, yeməklə bağlı əllərinə düşən hər fürsətdən istifadə etməyə çalışdıqları üçün seçici davranmırlar və nəticədə sağlam qidalanmanı təmin etməkdən uzaq olurlar. Həmçinin onların yemək ala bildikləri yerlərin də geniş çeşidi olmadığı üçün həmişə eyni qidalarla qidalanmaqla zəruri qida maddələrini qəbul edə bilməmək riski ilə üzləşirlər. Bu da nəzərə alınmalıdır ki, ən ucuz bişinti məhsullarının hazırlandığı məkanlarda eyni yağın bir neçə dəfə təkrar istifadəsi oradan daimi qida mənbəyi kimi yararlanan evsiz şəxslərdə bir müddət sonra sağlamlıqla bağlı problemlərin, hətta zəhərlənmə hallarının meydana çıxmasına səbəb ola bilər.

Qidalanma ilə bağlı mütəxəssislərin təlimatlarındakı rəqəmlərə və bütövlükdə qalan əhalinin qida qəbulu miqdarına nisbətən az meyvə və tərəvəz qəbulu (FVI) evsiz insanlar arasında onların nisbi sağlamlıqlarının pisləşməsinə səbəb olan əsas pəhriz faktorlarından biridir. Meyvələr həm təbii, həm də emal olunmuş formalarda (məsələn, qurudulmuş və ya şirə şəklində) qəbul oluna bilər. Bu, evsiz şəxslərə qida yardımını təşkil edən qurumların da bir çox hallarda gözdən qaçırdığı məsələlərdən biridir.

Evans və Daulerin bununla bağlı keçirdiyi tədqiqatın nəticələrinə əsasən, evsizlərin yalnız 28%-i hər gün tərəvəz yeyirdi, 60%-i isə nadir hallarda meyvə, salat, meyvə suyu və ya kəpəkli un məmulatlarını əldə edə bilirdi. (17, s. 3-5) Britaniya Səhiyyə Nazirliyinin açıqlamasına əsasən, oradakı evsizlər arasında ucuz peçenyelərin yeyilməsi nəticəsində şəkər qəbulu ümumi əhaliyə nisbətən daha yüksək idi.

Çoxsaylı tədqiqatlar göstərir ki, evsiz kateqoriyasında yer alan insanların çoxunda kalori qəbulu tövsiyə olunan səviyyədən çox aşağıdır və kalsium, folasin, dəmir, maqnezium və ya sinkin qeyri-kafi səviyyələrdə qəbulu ilə tez-tez qarşılaşmaq mümkündür. Bu cür aşağı kalorili pəhrizlər çox vaxt doymuş yağ, xolesterin və natrium baxımından zəngin olur, əsas qida maddələri cəhətdən isə qənaətbəxş olmamaqla mənfi lipid profillərinə töhfə verir. Natrium və doymuş yağlarda gündəlik tövsiyə olunan miqdarı aşan qidalanma növlərinin ürək-damar xəstəliklərinin səbəblərindən biri sayıldığını da qeyd etmək vacibdir. (14, s. 188)

Gündəlik tövsiyə olunan miqdarın küçə həyatı yaşayan insanların qidalanmasına necə tətbiq olunacağı ilə bağlı da fikir ayrılıqları var. Ancaq nəzərə alınmalıdır ki, küçədəki həyatın sərtliyi (gəzmək, yuxusuzluq, həddindən artıq yuxarı və aşağı temperaturlara məruz qalmaq və s.) səbəbindən fiziki fəaliyyət, yəqin ki, enerji tələbatını artırır. Eyni şəkildə evsiz kişilərdə tez-tez müşahidə edilən tütün və spirtin həddindən artıq istehlakı çoxsaylı mikroelementlərin absorbsiyasını zəiflədir və antioksidantlara olan tələbatı artırır. Deməli, evsizlər arasında alkoqol və tütün qəbulu halında vitamin və mineralların, xüsusən də C vitamini, sink, B vitaminləri, kalsium və D vitamini qəbulu da artırılmalıdır.

Evsizlər üçün qidanın təhlükəsiz (buraya ərzaqla yanaşı, təmiz suyun əlçatılmazlığı və aşağı alkoqol istifadəsi də daxildir) olmaması həyat keyfiyyətinə və sosial fəaliyyətə təsir göstərməklə yanaşı, yaxşı qidalanmama ürək xəstəliyi, hipertoniya, şəkərli diabet və depressiyanın yüksək nisbətləri, eləcə də bir sıra xəstəliklərdə daha pis sağlamlıq nəticələri ilə əlaqələndirilir. Bines 1994-cü ildə tək yaşayan evsizlərin sağlamlıq vəziyyətini araşdıraraq aşkar etmişdi ki, xroniki döş qəfəsi xəstəliklərinə, yaralanmalara, dəri xoralarına, başqa dəri xəstəliklərinə, həzm problemlərinə və tez-tez baş ağrılarına gecələri küçələrdə keçirən insanlarda ümumi əhalidən üç dəfə daha çox rast gəlinir. (4, s. 7) Evsiz insanların psixi sağlamlıq problemlərinin araşdırılması ilə bağlı tədqiqatlarda isə ümumi əhalinin sağlamlıq vəziyyətinə nisbətin başqa xəstəliklərdəki nisbətdən daha böyük olduğu üzə çıxıb.

*Evsiz insanların qida zəhərlənməsi problemi*

Evsizlərin qidalanma tərzlərini araşdıran tədqiqatımızın qida təhlükəsizliyinin bir elementi olan ikinci istiqaməti isə qida zəhərlənməsi ilə bağlıdır. Qida zəhərlənməsi dedikdə, patogen mikroorqanizmlərin qida və ya içki vasitəsilə bədənə daxil olması nəticəsində yaranan həzm narahatlığı nəzərdə tutulur. (9) Buna səbəb olan faktorlar arasında kimyəvi maddələr, təbii qida toksinləri, metallar, pestisidlər, yuyucu vasitələr, plastiklər, parazitlər, bakteriyalar, kif və ya

mayanın orqanizmə daxil olmasını göstərə bilərik. Mikroorqanizmlər arasında, xüsusən də bakteriyalar, bir çox qida yoluxucu xəstəliklərin əsas səbəbkarlarıdır. Əsasən, yüngül və qısamüddətli xəstəliklər xüsusilə yay aylarında artır və ölümcül ola bilir. Qida zəhərlənməsi simptomlarına qida qəbulundan sonra 30 dəqiqə ilə 72 saat arasında rast gəlmək mümkündür. İshal, ürəkbulanma, qusma, şiddətli qarın ağrısı kimi həzm sistemi ilə bağlı şikayətlərə əlavə olaraq bəzən zəhərlənmə nəticəsində bədən temperaturunun kəskin yüksəlməsi də müşahidə oluna bilər.

Evsizlər qida zəhərlənməsi riski altında olan həssas əhali qrupları arasında, bəlkə də, ən həssası sayıla bilər. Fikrimizin əsaslandırması kimi həm bu xəstəliyin xüsusilə immun sistemi zəif olan insanlarda daha ciddi fəsadlara yol açmasını, həm evsiz şəxslərin qeyri-sanitar qida qəbulu riskinin daha yüksək olmasını, həm də təhlükəli miqdarda alkoqol qəbulu nəticəsində zəhərlənmə riskinin meydana çıxmasını qeyd edə bilərik.

Evsizlərin problemlərin öhdəsindən gəlmək davranışlarının aspektləri qida təhlükəsizliyinə də təsir edə, bəzi davranışlar isə daha pis nəticələrə səbəb ola bilər. Məsələn, evsizlər arasında yüksək olan spirt istehlakı eyni zamanda daha sağlam qidaların qəbulunu əvəz edə biləcək kalori mənbəyidir. Əks təsir əlaqəsinin ən çox ehtimal edilən mexanizmi qida təhlükəsizliyinin sağlamlığa zərər vurmasıdır ki, bu da insanın məhsuldarlığını və iqtisadi imkanlarını azaldır və ya başqa sözlə, evsizlik ehtimalını gücləndirir.

*Evsiz insanlarda alkoqol asılılığı*

Dünya Səhiyyə Təşkilatının (DST) hazırladığı 10 suallı sorğu olan Alkoqol İstifadəsi Pozuntusunun Müəyyənləşdirilməsi Testi (AUDIT) evsizlərin alkoqollu içki istehlakı səviyyəsini müəyyənləşdirmək üçün bir neçə tədqiqatda tətbiq olunub. Hazırkı təhlükəli səviyyədə içki qəbulu AUDİT balı 8 bal kimi təyin olunub. Fərqli tədqiqatlar evsizlər arasında bu rəqəmin yüksək olduğunu üzə çıxarıb. Məsələn, 2004-cü ildə ABŞ-da keçirilən sorğuda iştirak edən evsiz şəxslərin 36%-də alkoqol qəbulunun təhlükəli səviyyələrdə olduğu aşkar edilmişdi ki, bu da aludəçilik və ciddi sağlamlıq riskləri deməkdir. (7, s. 5)

2002-ci ildə Fransada keçirilmiş başqa bir tədqiqatda 87 könüllü iştirak etməyə razılıq vermişdi, onların 88,5%-i kişi, 11,5%-i qadın idi. Bu cins nisbəti Parisdəki evsizlərin rəsmi statistikadakı cins nisbətinə (79% kişi və 16% qadınlar) yaxın olan göstəricidir. Araşdırmada könüllülərin 84%-i müntəzəm olaraq içki qəbul etdiklərini bildirmişdilər. Bu tədqiqat Parisdəki evsiz qadınlarda gündəlik 167 qram, kişilərdə isə 175 qram alkoqol qəbulu göstəricisi müəyyənləşdirmişdi. Avstraliyada 1988-ci ildə Darnton-Hill və Aşın müəyyənləşdirdiyi göstəricilər isə evsizlərinin 89%-nin müntəzəm içki qəbul etdiyi və gündəlik orta hesabla 231 qram spirt istehlakının nəticəsi idi. Bu spirtli içki istehlakı səviyyələri əhalinin qalan hissəsi ilə (Fransa əhalisi orta hesabla gündəlik 40 qram spirt istehlak edir) müqayisədə evsiz şəxslərdə ciddi alkoqol asılılığı problemi olduğunu sübut edir. (17, s.4)

Bəzi nəticələrini yuxarıda da qeyd etdiyimiz alkoqol istehlakının belə yüksək səviyyələrdə olması bir neçə cəhətdən evsiz insanlarda problemlərə səbəb olur. Bunlara: evsiz şəxslərin iş imkanlarını azaltması, karbohidratlar və enerji qəbulunda alkoqoldan əldə edilən qida maddələrinin sağlam qidaların yerini tutması ilə sağlamlıq problemlərinə səbəb olması, evsizlərin sərxoş vəziyyətdə qəzalar keçirməsinə səbəb olması, alkoqol zəhərlənməsindən olan ölümlər, insanlarda evsiz şəxslərə qarşı stiqmatizasiyanın yaranması, nəticədə onların sosial mühitlərdən izolyasiyası və s. kimi misallar göstərə bilərik. Pis təşkil olunmuş pəhriz və həddindən artıq spirt istehlakından əlavə, evsiz insanları sağlamlıq riski altında qoyan üçüncü əsas amil kimi narkotik maddə asılılığını da qeyd edə bilərik.

*Evsiz insanlara qida yardımının təşkil olunması təcrübələri*

Evsizlərin qidasının sağlam və təhlükəsiz olması üçün çalışan sosial subyektləri **dövlət, xeyriyyə təşkilatları** və **konkret fərdlər** kimi üç yerə ayıra bilərik. Xeyriyyə təşkilatları, adətən, dini təşkilatlar və digər qeyri-kommersiya agentlikləri şəklində evsizlərə xidmət göstərir. Bu sahədə statistik məlumatların daha təfsilatlı olduğu ABŞ nümunəsinə baxsaq, burada 1980-ci illərin əvvəllərində sığınacaqların maliyyələşdirilməsi ilə bağlı rəqəmlər göstərirdi ki, hökumət evsizlər üçün yemək xidmətlərini dəstəkləyən ödənişin üçdə birindən azını, birbaşa qida yardımının isə üçdə birindən bir qədər çoxunu ödəyirdi. Sonrakı onilliklərdə bu nisbət getdikcə artdı və hazırda yerli, əyalət və federal hökumətlər evsizlər üçün bu maddi yardım və qida yardımının üçdə iki hissəsini təmin edirlər. (6, s. 17)

Yardımın təşkili formalarına nəzər salmağa elə Birləşmiş Ştatlar keysinin qiymətləndirilməsi üzrə davam edə bilərik. Burada fəaliyyət göstərən qeyri-hökumət qida proqramlarına qeyri-kommersiya təşkilatları və dini təsisatların idarə etdiyi ərzaq bankları, qida anbarları və sığınacaqlar daxildir. Ərzaq bankları qidaların ianələrini qəbul edən, lakin onları özü birbaşa evsiz insanlara paylamayan vasitəçi təsisatdır. Ərzaq banklarında yığılmış ianələr qida anbarlarına (təcili istifadə üçün ərzaq paketləri təqdim edən yerlər), "Şorba mətbəxi" adlanan pulsuz yemək paylama məntəqələrinə və sığınacaqlara paylanılır. Dövlətin isə sığınacaqları maliyyələşdirməkdən əlavə, evsiz insanların aclıq probleminin həlli üçün tətbiq etdiyi ikinci üsul "qida ştampları" sistemidir. Bura müraciət edən aşağı gəlirli şəxslərə davamlı qida almaq üçün istifadə edə biləcəkləri çeklər verilir. Evsizlərin hüquqlarını müdafiə mövqeyindən çıxış edənlərin iddiasına görə, şəxsiyyət vəsiqəsinin yoxluğu başda olmaqla, evsiz insanların sənədləri toplamaqla bağlı problemləri var və dövlətin sosial yardım sistemi bu kimi halları nəzərə almalıdır.

Azərbaycanda yetkinlik yaşına çatmış evsiz şəxslərə yardımın dövlət qanadının təmsilçisi Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsidir. Lakin 2020-ci ilin dekabrına olan statistikaya əsasən, burada ümumilikdə 71 nəfərə xidmət göstərilir və onların heç də hamısı evsizlər deyil. Azərbaycanda bu kateqoriyadan olan insanlara yardımın xeyriyyə təşkilatları qanadının təmsilçisi kimi isə 2006-cı

ilin mayından Tereza Kalkuttskaya ana Şəfqət bacılarının (Katolik Kilsəsində qadın rahibə konqreqasiyası) Bakıda yaratdığı evsizlər sığınacağını göstərə bilərik. Pravoslav Mixail-Arxangel kilsəsi evsizlərə gündəlik isti yemək verir. Qafqaz Müsəlmanları İdarəsi isə evsizlərə müntəzəm və stasionar yardımla məşğul olmur. (1)

Yuxarıda qeyd etdiyimiz kimi, evsiz insanlara yardımın üçüncü növü fərdi təşəbbüslərdir. Yenə ABŞ nümunəsini təhlil etsək, görərik ki, bir çox şəhərlərdə fərdlərin və qrupların evsiz insanlara ictimai yerlərdə qida verməsini qadağan edən qanunlar var. Bunlara nümunə kimi, Las Veqas, Dallas, Vilminqton, Orlando və s.-i göstərə bilərik. Məsələn, Dallasda parklarda evsiz insanla yemək paylaşarkən tutulan şəxs 2000 ABŞ dollarına qədər cərimə oluna və ya altı aya qədər həbs cəzası ala bilər. (18, s. 9) Bu qadağaları müxtəlif səbəblərlə izah etməyə çalışırlar. Bunlara nümunə kimi, “belə davranışın evsiz insanları evsiz qalmağa və sığınacağa getməməyə təşviq etdiyi”, “yardımların qeydiyyatdan keçmiş xeyriyyə təşkilatlarının vasitəçiliyi ilə edilməli olduğu”, “bu insanların dövlət sosial yardımına baş vuraraq qida əldə edə biləcəyi, lakin bunu etmədikləri”, “turistlərin şəhər mərkəzlərində bu insanlarla qarşılaşmaq istəmədiyi” və s. əsaslandırmaları qeyd edə bilərik. Bu şəhərlər evsiz insanları mərkəzi ərazilərdən kənar tutmaq üçün tədbirlər görsə də, bir çox şəhərlərdə ehtiyacı ödəmək üçün adekvat xidmətlər, sığınacaqlar və əlverişli qiymətə olan kirayə mənzillər yoxdur. (18, s. 10) Evsizlərə qarşı neoliberal siyasətin ən kəskin formalarından birini Macarıstanda görmək mümkündür. Burada küçədə gecələmək qanun pozuntusu sayılır, bu davranışa görə cərimə və hətta inzibati həbs cəzaları nəzərdə tutulub. (11)

Evsiz insanlara fərdi və ya qrup təşəbbüsü vasitəsilə qida yardımı edilməsinin başqa bir nümunəsi olan “Food Not Bombs” (FNB) ictimai təşəbbüsü dünyanın müxtəlif yerlərində ictimai yerlərdə pulsuz yemək payladıqları açıq pikniklər keçirir. Bir çox Qərb ölkələrində bu təşəbbüs yerli sahibkarların və evsiz insanlara sosial yardımları təşkil edən qurumların tənqidinə məruz qalır. Pikniklərin təşkilatçıları isə həmin pikniklərin ancaq evsiz şəxslər üçün olmadığını, istəyən hər kəsin gəlib yeməyini bölüşdüyü və ya yeməklərdən daddığı bir tədbir olduğunu qeyd edirlər. Burada heç bir pul ianəsi qəbul edilmir və iştirak üçün yeganə şərt kimi gətirilən qidaların veqan və ya vegetarian qidalar olması şərti qoyulur. (12, s.228-229)

Aclığın insanları bunu etməyə məcbur qoyduğu deviant və delinkvent davranışların sosioloji təhlili nəticəsində bunu qeyd edə bilərik ki, təhlükəsiz qidaya çıxışın olmaması və aclıq, xüsusən də gənc evsizləri dilənçilik, ərzaq mağazalarından oğurluq etmək, restoranlarda xörək yemək, ancaq pul ödəmədən qaçmaq və ya yemək pulu qazanmaq üçün narkotik maddələr satmaq kimi davranış riskləri ilə qarşı-qarşıya qoyur. Hətta bir neçə tədqiqat belə bir faktı üzə çıxarıb ki, bəzən evsiz şəxslər qəsdən qanun pozuntusuna yol verərək qidalanmaqdan ötrü inzibati həbsə düşürlər və ya gecəni keçirmək üçün spirtli içkilərin detoksifikasiyası müəssisələrinə yerləşdirilməyə üstünlük verirlər. Sue Booz qeyd edir ki, ərzaq oğurluğu ilə daha əvvəl evsiz olmaq arasında əhəmiyyətli əlaqə var və bu, ərzaq oğurluğunun evsizliyə cavab olaraq inkişaf etdirilən adaptiv davranış olduğunu deməyə əsas verir. (5, s. 212-218) Evsiz

insanlarda belə deviant davranışların və qanun pozuntularının alternativi kimi qarşımıza çıxan başqa bir davranış isə aşağı gəlir qarşılığında kölgə iqtisadiyyatının bir parçasına çevrilməkdir.

Vurğuladığımız bütün bu hallara görə fərz edirik ki, bu şəxslərin əksər hallarda daimi gəlir mənbələri olmadığı üçün əsas yemək mənbələri ucuz və keyfiyyətsiz qidalardır. Bu isə həmin insanların vaxtı keçmiş, qeyri-sanitar ərzaqla qidalanmalarıma səbəb olur. Deyilənlərin nəticəsi olaraq, Bakı şəhərindəki evsiz şəxslərin gündəlik kalori ehtiyaclarını ödəyə bilmədiklərini və qida zəhərlənməsi halları yaşadıqlarını güman edərək, bu məsələnin araşdırılmasına qərar vermişik.

# 2. Tədqiqat dizaynı

Bakının Binəqədi, Yasamal, Səbail, Nəsimi, Nərimanov, Xətai, Nizami və Sabunçu rayonları ərazisindəki parklar, yeraltı və yerüstü keçidlər və tərk edilmiş binalara baxış keçirməklə həmin ərazilərdəki evsiz insanları tam təsadüfi seçmə üsulu ilə aşkarlamaq və onlara soğruda iştirak təklif etmək nəzərdə tutulub. Sorğu növü kimi həm açıq, həm qapalı, həm də yarımqapalı sualları ehtiva edən və 30 sualdan ibarət olan anket sorğusunun keçirilməsi qərarlaşdırılıb. Bundan əlavə, Sosial Xidmətlər Agentliyi nəzdindəki Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə informasiya sorğusunun göndərilməsi və həmçinin sorğu keçirmək üçün həmin sığınacaqdakı evsiz insanlara məktubla müraciət edilməsi planlaşdırılır. Əldə olunan məlumatlar SPSS proqramı vasitəsilə təhlil ediləcək.

## Metodlar:

1.Küçə həyatı yaşayan şəxslərin soyuq gecələri keçirmək üçün sığındıqları keçidləri, tərk edilmiş binaları və parkları müəyyənləşdirdikdən sonra bu şəxslərlə anket sorğuları keçirmək.

2.Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə yerləşdirilmiş evsiz şəxslərlə və katolik kilsəsi nəzdində Tereza Ana adına kimsəsizlər üçün sığınacaqda yaşayan evsizlərlə müsahibə.

3.Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə yerləşdirilmiş şəxslərin tibbi müayinəsinin keçirildiyi tibb müəssisəsinin həkimləri ilə ekspert sorğusu.

## Hipotezlərimiz:

1.Bu şəxslərin qidalarının əsas hissəsini karbohidratlar təşkil edir və zülal, vitamin baxımından çatışmazlıq yaşayırlar.

2.Bu şəxslər üçün yalnız ucuz və keyfiyyətsiz qidalar əlçatan olduğundan bu, onların qida zəhərlənməsi halları yaşamalarına səbəb olur.

3.Küçə həyatına yaşayan evsizlər qida zəhərlənməsi halları yaşadıqda tibbi xidmətlərdən faydalanmırlar.

# 3. Əldə olunmuş data

15-25 aprel 2022-ci il tarixləri arasında, hər gün 23:00-4:00 saatları aralığında Bakının Binəqədi, Yasamal, Səbail, Nəsimi, Nərimanov, Xətai, Nizami və Sabunçu rayonları ərazisindəki parklar, yeraltı və yerüstü keçidlər, tərk edilmiş binalar və yaşayış sahələrinin ətrafında istirahət üçün nəzərdə tutulmuş yerlərə iki tədqiqatçı gedib və ümumilikdə 116 məkana baxılıb. Tərk edilmiş və inşası davam edən tikililərə həmin saatlarda baxış keçirmək çətin olduğu üçün araşdırılmış məkanlar arasında onların sayı azdır. Baxılmış məkanlarda 26 respondentlə sorğu keçirilib, bundan əlavə, sorğunun təklif olunduğu 11 evsiz şəxs sorğuda iştirakdan imtina edib. Sorğuda iştirak etmiş evsiz şəxslərin 12-si Səbail rayonu ərazisində, 5-i Nizami rayonu, 3-ü Yasamal rayonu, 3-ü Nəsimi rayonu, 2-si Nərimanov rayonu və 1-i Binəqədi rayonu ərazisində aşkar edilib. Bu şəxslərin 24-ü kişi, 2-si isə qadındır.

**Təsviri Statistika**

| | Say | Minimum | Maksimum | Orta | Std. Sapma |
|---|---|---|---|---|---|
| Yaş | 26 | 15 | 70 | 38.69 | 12.033 |
| Boy | 24 | 158 | 190 | 172.92 | 7.518 |
| Çəki | 23 | 56 | 101 | 67.17 | 9.801 |

Bu tədqiqatda respondentlərin orta yaşı kimi qarşımıza çıxan 38.69 rəqəmi girişdə qeyd etdiyimiz dünya üzrə evsiz insanlarla bağlı tədqiqatlarda müəyyənləşdirilən 37-43 orta yaş aralığına daxildir və bu cəhətdən başqa tədqiqatlarla oxşardır. Respondentlərin 92%-nin kişi cinsinə mənsub olmasını nəzərə alaraq, tədqiqatdakı bu demoqrafik məlumatları Azərbaycanda kişi əhalinin orta statistikası ilə müqayisə etdikdə görürük ki, respondentlər arasında 172.9 sm olan orta boy Azərbaycan əhalisi içərisində kişilərin orta boyu sayılan 171,4 sm-lə oxşardır. Lakin Azərbaycan əhalisi içərisində kişilərin orta çəkisi 72,5 kq olduğu halda, bizim respondentlərimizin orta çəkisi 67.17 kq olub. (2)

Respondentlərin 6-sı 30 yaşa qədər olan şəxslər, 16-sı 31-45 yaş arası şəxslər, 4-ü isə 45-dən artıq yaşı olan şəxslərdir.

Yaş, boy və çəkinin hər üçü ilə bağlı məlumat vermiş respondentlərin məlumatları əsasında Bədən-Kütlə İndekslərini hesabladıqda 4 respondentin normal həddən yuxarı bədən-kütlə indeksi, 1 nəfərin normadan aşağı bədən-kütlə indeksi, 13 nəfərin normal hədd daxilində aşağıçəkililiyə daha yaxın, 5 nəfərin isə normal hədd daxilində artıqçəkililiyə daha yaxın bədən-kütlə indeksi olduqları bəlli olub. Lakin anketdə daha sonra verilən suallardan biri də bu şəxslərin evsiz həyata keçdikdən sonra çəki itirib-itirməmələri ilə bağlı sual idi. Suala verilən cavablara əsasən, evsiz şəxslərin 16-sı (64%) evsiz həyata keçdikdən sonra çəki itirib, 9 nəfər (34%) isə çəki itkisi yaşamadığını bildirib.

## Təhsil səviyyəsi

| | Tezlik | Faiz |
|---|---|---|
| Natamam orta | 8 | 30.8 |
| Orta | 12 | 46.2 |
| Peşə | 1 | 3.8 |
| Ali | 5 | 19.2 |

Respondentlərdən 14-ü (53.8%) subay, 8-i (30.8%) boşanmış, 3-ü (11.5%) evli, 1-i (3.8%) isə duldur. Subay olduğunu qeyd edən respondentlərin hamısı həmçinin övladlarının da olmadığını qeyd ediblər. Yerdə qalan 12 evsiz şəxsin 4-ü bir övladının, 4-ü iki övladının, 3-ü üç övladının olduğunu, 1-i isə övladının olmadığını qeyd edib.

Neçə müddətdir evsiz olmaları ilə bağlı suala 4 respondent cavab verməyib, cavab verənlərdən isə beşi 1 həftə-2 ay arası müddət, beşi 3 ay-2 il arası müddət, altısı iki il-on il arası müddət, altısı isə 10 il və ya daha artıq müddət cavabını verib.

Son bir ay ərzində gecəni küçədən başqa harada keçirdikləri ilə bağlı suala respondentlərin 3-ü qohumlarının evi, 3-ü bir gecəlik evlər, 6-sı hostel, 8-i isə variantlarda qeyd olunmayan başqa bir yer cavabını verib. 6 respondent isə son bir ay ərzində gecəni yalnız küçədə keçirib.

Bakı şəhərindəki evsiz şəxslərin gəlir mənbələrinin nələr olması ilə bağlı qoyulan çoxvariantlı sualda 17 evsiz şəxs "işləyirəm" (verilən cavabların çoxunda iş kimi zibil qutularından müxtəlif əşyaları yığaraq satmaq nəzərdə tutulur) cavabını seçib, 6 nəfər dilənçiliklə məşğul olduğu, üç nəfər qohumları və tanışlarından yardım aldığı, 3 nəfər isə heç bir gəlir mənbəyi olmadığı cavabını seçib.

Şəxsiyyət vəsiqəsinin mövcudluğu ilə bağlı suala verilən cavablara nəzər saldıqda isə, bu 26 şəxsdən yalnız üçünün (11.5%) üzərində şəxsiyyət vəsiqəsi daşıdığını, 11-nin (42.3%) şəxsiyyət vəsiqəsi olsa da, üzərində daşımadığını, 12-nin (46.2%) isə şəxsiyyət vəsiqəsinin olmadığını görürük.

Sorğuda iştirak etmiş 26 şəxsin hər biri dövlət qurumlarından hansısa formada sosial yardım almadıqlarını qeyd ediblər. Onlardan yalnız biri daha əvvəl Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində yerləşdirildiyini, biri isə bununla bağlı təklifdən imtina etdiyini qeyd edib. Başqa 24 respondent bununla bağlı onlara hər hansı bir təklifin olmadığını qeyd edib. Lakin onu da vurğulamaq lazımdır ki, çoxu 40 yaş ətrafında olan bu respondentlər söhbət zamanı sığınacağa yerləşdirilməyin ahıl və sağlamlıq imkanları məhdud insanlar üçün münasib bir şey olduğunu təsəvvür etdiklərini deyiblər.

Bu 26 şəxsdən 11-i səhhətində daimi bir pozuntunun olmadığını qeyd edib. Digər verilən cavablar arasında sadalanan xəstəliklər kimi astma (iki nəfərdə), ayaqda hərəkət imkanını məhdudlaşdıran problem (iki nəfərdə), qaraciyərin fəaliyyəti ilə bağlı problem (iki nəfərdə), bel ağrıları, böyrək ağrıları, vərəm, revmatizm, dişlərin çürüklüyü, sümük əyriliyi, daimi öskürək, psixoloji pozuntu və nevroz qeydə alınıb.

Siqaret, narkotik və alkoqol maddələrin istifadəsi ilə bağlı verilən sualların hər birində bir respondent bu sualları cavabsız qoyub. Yerdə qalan 25 respondentdən 19-u siqaret çəkdiyini, 14-ü alkoqollu içkilər içdiyini, 4-ü isə narkotik maddələrdən istifadə etdiyini qeyd edib. Alkoqollu içkilər içən 14 evsizin 8-i bunu hər gün etdiyini, 3-ü həftədə bir neçə dəfə alkoqol qəbul etdiyini, 3-ü isə ayda bir neçə dəfə alkoqollu içkilərdən istifadə etdiyini deyib.

Respondentlərdən 1-i gün ərzində, adətən, bir dəfə qida qəbul edə bildiklərini, 13-ü gün ərzində, adətən, iki dəfə qida qəbul etdiyini, 9-u isə üç dəfə qida qəbul etdiyini qeyd edib. 3 respondent isə bu suala aydın cavablarının olmadığını bildirib. Bu evsiz şəxslərin 3-ü təmiz, içməli suyun onlar üçün əlçatan olmadığını, 21-i içməli su tapmaqla bağlı çətinliklərinin olmadığını qeyd edib, iki nəfər bu sualı cavabsız qoyub. Həmçinin onlardan 7-si hər günün başlanğıcında ac qalacağı ilə bağlı narahatlıq keçirdiyini, 19-u isə belə bir narahatlıqlarının olmadığını bildirib.

Sorğuda respondentlərə həmçinin qidalarını hansı mənbələrdən əldə etdikləri və qidalanmalarında hansı qida qrupunun üstün olduğu ilə bağlı çoxvariantlı suallar da ünvanlanıb.

Cavablara əsasən, bu evsiz şəxslər arasında 13 nəfər qidasını ictimai iaşə obyektlərindən alır, 11 nəfər qida artıqları ilə dolanmağa çalışır, 7 nəfər başqa insanlardan qida yardımı əldə edir, 1 nəfər isə dini təşkilatların qida yardımından yararlanır. Girişdə qeyd olunan Gelberqin tədqiqatı evsizlərin beşdə birinin öz qidalarını zibil qutularından götürdüyünü və ya sədəqə kimi aldıqlarını qeyd edirdi, lakin Bakı şəhərindəki evsizlərlə bağlı bizim tədqiqatımızda bu nisbət yuvarlaq olaraq beşdə üçdür. Bu da qida yardımının təşkili təcrübələrinin və təkmil sığınacaq sisteminin yoxluğu ilə əlaqəli ola bilər. Qidalarını əldə etdikləri mənbələrlə bağlı sualın ardınca gələn ikinci sualda iki variant seçiminə icazə verilmişdi və respondentlərdən 19 nəfər taxıl məhsullarının, 9 nəfər ət məhsullarının, 5 nəfər süd məhsullarının, 3 nəfər tumlu və paxlalı bitkilərin, 3 nəfər isə tərəvəz və meyvələrin onların qidalanmasında üstünlük təşkil edən iki qida qrupu arasında olduğunu vurğulayıb.

Anketin son beş sualı qida zəhərlənməsi ilə bağlı sualları ehtiva edən sual blokundan ibarətdir. Bu suallara verilmiş cavablara əsasən, 26 respondentdən 14-ü indiyə kimi qida zəhərlənməsi saydığı halla qarşılaşdığını xatırlamır, 11-i nadir hallarda qida zəhərlənməsi yaşadığını qeyd edir, 1-i isə tez-tez olmasa da, bəzən qida zəhərlənməsi yaşadığını bildirir. Qida zəhərlənməsi halı ilə qarşılaşdığını qeyd edən respondentlərdən 5-i bunun səbəbi kimi vaxtı keçmiş qidaları qəbul etməsini, 5-i qəbul etdiyi ucuz qidaları, 1-i isə qeyri-sanitar yerdən tapdığı qidaları göstərib. Qida zəhərlənməsi zamanı 5 respondent qusma, 3 respondent qarın ağrısı, 2 respondent isə halsızlıq yaşadığını bildirib. Qida zəhərlənməsindən sağalmaq üçün 6 respondent başqa hansısa qidanı zəhərlənməyə səbəb olan qidanın üzərindən qəbul etdiyini, 2 respondent təmiz su içdiyini, 1 respondent isə nəsə etməyi düşünmədiyini bildirib. Respondentlərdən heç biri bu halla rastlaşdıqda tibbi xidmətlərə və ya apteklərə yardım üçün müraciət etməyib. Qida zəhərlənməsi yaşamamaq üçün qidalanmasına xüsusi diqqət edib-etməmələri ilə bağlı suala 13 respondent xüsusi diqqət yetirdikləri (vaxtı keçmiş və qeyri-sanitar qidalardan uzaq durduqlarını), 9-u bacarqdıqca diqqət yetirdiyini, 4-ü isə sağlam və təmiz qida qəbuluna xüsusi diqqət yetirmədiyi cavabını verib.

## Məhdudiyyətlər:

1.Dövlət qurumlarından küçədə yaşamağa məcbur olan evsiz şəxslərlə bağlı təfsilatlı statistik məlumatların əldə edilə bilməməsinə görə tədqiqat nəticələrinin geniş çərçivədə şərh edilə bilməməsi.

2.Küçədə yaşamağa məcbur olan evsiz şəxslərin özlərinə məlum olmayan başqa xəstəliklərinin mövcudluğu ehtimalı. Bu halda özlərini yaxşı hiss etmədikdə, bunu yedikləri qida ilə əlaqələndirməyə bilərlər və beləcə suallara verdikləri cavablar vəziyyətə adekvat olmaya bilər.

3.Tədqiqatın yaz aylarında keçirilməsi. Bu aylarda gecələrin hələ də soyuq keçməsinə görə parklara alternativ yerlərə sığınmaları ehtimalı nəzərə alınmalıdır. Bu, respondentlərin dairəsini məhdudlaşdırıb.

4. Qan nümunələrinin alınması, antropometrik ölçülərin birbaşa götürülməsi kimi dəqiqləşdirici üsullardan istifadə imkanımız olmadığı üçün bu, tədqiqatın gəldiyi nəticələrin dəqiqlik dərəcəsinə təsir göstərə bilər.

# 4. Nəticə

Əldə olunan nəticələrlə tədqiqat dizaynında qoyulan üç hipotezin ikisi tam şəkildə, biri isə qismən təsdiqini tapıb. Bakı şəhərindəki evsiz insanların qidalarının əsas hissəsinin karbohidratlar olması bu açıqlamalarla öz təsdiqini tapıb: onların 76%-nin daha çox taxıl məhsullarından, 56%-nin isə alkoqollu içkilərdən istifadəsini açıqlaması. Həmçinin respondentlərdən yalnız üçü tərəvəz və meyvələrin onların qidalanmasında üstün olduğunu iki qida qrupundan biri kimi qeyd etmələri bu şəxslərin vitamin qəbulu ilə bağlı çatışmazlıq yaşadıqlarını iddia etmək üçün əsas ola bilər. Küçədə yaşamağa məcbur olan evsiz şəxslərin qida zəhərlənməsi zamanı tibbi xidmətlərdən faydalanmamalarını qeyd edən hipotez respondentlərin heç birinin müvafiq anket sualında bu variantı seçməmələri ilə təsdiqlənib. Tədqiqatla qismən təsdiqlənən hipotez isə bu şəxslərdən ötrü yalnız ucuz və keyfiyyətsiz qidalar əlçatan olduğu üçün bunun onlarda qida zəhərlənməsi hallarının yaşanmasına səbəb olması hipotezidir. Baxmayaraq ki, respondentlərin yalnız 46.1%-i qida zəhərlənməsi halı ilə rastlaşdığını qeyd edib, daha təfsilatlı təşkil olunmuş sonrakı tədqiqatlarda daha yüksək nəticələr əldə etmək mümkün ola bilər. Burada son iki-üç ay ərzində evsiz həyata başlamış şəxslərin və ya qida zəhərlənməsi yaşasa belə, bunu qida zəhərlənməsi hesab etməyərək üstündən keçmiş şəxslərin mövcud ola biləcəyi də nəzərə alınmalıdır. Qida zəhərlənməsi halı ilə qarşılaşdığını qeyd edən respondentlərdən 5-nin bunun səbəbi kimi vaxtı keçmiş qidaları, 5-nin ucuz qidaları, 1-nin qeyri-sanitar yerdən tapdığı qidaları göstərməsi bu üçüncü hipotezi də doğru saymaq üçün əsas verir.

Yekun olaraq qeyd etməliyik ki, Bakı şəhərindəki evsiz şəxslər ciddi qida çatışmazlığı problemi ilə üz-üzədirlər. Bu şəxslər üçün qida yardımının təşkil olunması yolları və ya sığınacaq sisteminin təkmilləşdirilməsi dövlətin sosial siyasətində aktiv bir istiqamət olmalıdır. Müşahidəmizə görə, Mixail-Arxangel pravoslav kilsəsinin təşkil etdiyi qida yardımından, əsasən, yoxsul pravoslavlar və yaxın ərazidə yaşayıb qida əldə etməkdə çətinlik çəkən digər vətəndaşlar faydalanırlar. Bu kilsədə sayca kifayət qədər çox insana qida yardımı təklif edilsə də, ondan faydalananlar arasında evsiz insanların sayı olduqca azdır. Katolik kilsəsi nəzdində Tereza Ana adına kimsəsizlər üçün sığınacağa gəldikdə isə, bu sığınacaq SXA-nin evsiz şəxslər üçün nəzərdə tutulmuş sığınacağından fərqli olaraq, evsiz insanları 6 ay müddətində yox, daimi yaşayış yeri ilə təmin edir. Məhz buna görə də uzun illərdir orada yaşayan, çoxu yaşlı olan insanların artıq evsiz kimi sorğuların respondentinə çevrilmələri ilə istənilən sorğu nəticələrinin alınması mümkün görünmür.

Belə hesab edirik ki, SXA-nin çətin həyat şəraitindəki fərqli bir neçə insan qrupunu birləşdirən sığınacağından əlavə, məhz evsizlər üçün nəzərdə tutulmuş ayrıca sığınacağının yaradılması da vacibdir. Belə bir sığınacağın işçilərinin evsiz insanların gecələdikləri müxtəlif məkanlara vaxtaşırı baxış keçirməklə onları sığınacağa dəvət etmələri, bu sığınacağın yalnız ahıl və xəstələr üçün nəzərdə tutulmadığını izah etmələri də evsizlərdəki mövcud təsəvvürləri nəzərə aldıqda atılmalı olan addımdır. Bu evsiz insanlar mobil olduqları üçün onlara birbaşa qida

yardımının göstərilməsini təşkil etmək əlverişli olmaya bilər, sığınacaqlarda yerləşdirərək gündə bir neçə dəfə yeməklə təmin etmək üsulunun dairəsini genişləndirmək bu səbəbdən ən səmərəli həll yolu kimi qarşımızda durur.

# 5. İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycanda dövlətin yetkinlik yaşına çatmış evsiz vətəndaşlara kömək sistemi yoxdur. http://www.turan.az/ext/news/2017/10/free/Social/az/65999.htm/001

2. Azərbaycanda kişilərin və qadınların boyu və çəkisi necə dəyişir? https://www.yeniavaz.com/az/news/index/119628/azerbaycanda-kisilerin-ve-qadinlarin-boyu-ve-cekisi-nece-deyisir-maraqli-statistika

3. Barrett A. L, Meredith J. G., (2008), Homelessness and Hunger Journal of Health and Social Behavior, Vol. 49.

4. Bines, W., (1994), The health of the single homeless. Centre for Housing Policy Discussion Paper 9. York Publishing Sendees.

5. Booth S., (2006), Eating rough: food sources and acquisition practices of homeless young people in Adelaide, South Australia. Public Health Nutr.

6. Burt M. R., Cohen B. E., (1989), Who Is Helping the Homeless? Local, State, and Federal Responses. The Urban Institute.

7. Conigliaro J., (2004), The Veterans Aging Cohort Study: Observational Studies of Alcohol Use, Abuse, and Outcomes Among Human Immunodeficiency Virus–Infected Veterans. Alcoholism: Clinical And Experimental Research.

8. Cortese, A. J. (2004), Walls and bridges: Social justice and public policy. New York: Suny Press.

9. Food poisoning - Symptoms and causes. https://www.mayoclinic.org/diseases-conditions/food-poisoning/symptoms-causes/syc-20356230

10. Homeless Population. http://oe.cd/ahd

11. Hungary's homeless ban: When poverty becomes a crime. https://www.dw.com/en/hungarys-homeless-ban-when-poverty-becomes-a-crime/a-45900111

12. Jason A. W., Clair J. M., (2010), At Home on the Street People, Poverty, and a Hidden Culture of Homelessness.

13. Kushel M., Gupta R., Gee L. M., (2016), Housing instability and food insecurity as barriers to health care among low-income Americans. J Gen Intern Med.

14. Levinson D., (2004), Encyclopedia of Homelessness. Volume 1.

15. Lorraine R., Surya C., (2020), Association of Problematic Alcohol Use and Food Insecurity among Homeless Men and Women. Int. J. Environ. Res. Public Health.

16. MacClancy J., Henry J., Macbeth H., (2017), Consuming the inedible: Neglected dimensions of food choice. New York: Berghan Books.

17. Malmauret L., (2002) Dietary intake of homeless people. European Journal of Clinical Nutrition.

18. NLCHP., (2007), Feeding Intolerance. A Report by The National Law Center on Homelessness & Poverty and The National Coalition for the Homeless.

19. ONS., (2018), Deaths of homeless people in England and Wales: 2013 to 2017, Local authority level data. https://www.ons.gov.uk/releases/deathsofhomelesspeopleinenglandandwales2013to2017localauthorityleveldata

20. Yeter. A., (2018), Sivil Toplum Kuruluşlarının Evsizlere Yönelik Hizmetlerinin Değerlendirilmesi: İstanbul Örneği. Yalova Sosyal Bilimler Dergisi.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI